BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2014

# POLİTOLOGİYA

UOT 342.34

## SİYASİ DEMOKRATİKLƏŞMƏNİN MƏZMUNU VƏ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**E.B.HACALIYEV**
***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***elnurhacali@mail.ru***

*Məqalədə siyasi demokratikləşmənin məzmunu, mahiyyəti və spesifik xüsusiyyətləri açıqlanır, bu prosesi şərtləndirən obyektiv və subyektiv xarakterli amillər araşdırılır, eləcə də bütövlükdə demokratik cəmiyyət quruculuğunun sosial-siyasi dəyərləri təhlil edilir.*

**Açar sözlər:** siyasi demokratiya, siyasi, demokratikləşmə, demokratik təsisat, parlament, model

Siyasi demokratikləşmə hər şeydən əvvəl, demokratik cəmiyyətin təşəkkülü və möhkəmlənməsinə istiqamətlənən çoxistiqamətli siyasi dəyişikliklər prosesidir. Bütövlükdə demokratikləşmə prosesi demokratiyanın konkret tarixi tipi ilə müəyyənləşir. Müasir dünyada siyasi demokratikləşmə prosesinin qloballaşması ilk növbədə neoliberal demokratiya modeli ilə bağlıdır. Bununla yanaşı, qlobal siyasi prosesin neoliberal demokratikləşməsi bir sıra mühüm problemlərlə şərtlənir. Analitiklər qloballaşma dövründə "demokratiyanın zərərli olduğunu" iddia edirlər.

Qloballaşma şəraitində cəmiyyətin ənənəvi demokratik təşkilinin transformasiyası perspektivi xüsusi həyəcan doğurur. Demokratiyanın ənənəvi modeli vətəndaşların böyük əksəriyyətini qane edən ümumi mənafeyə əsaslanmaqla xalq hakimiyyəti prinsipini başlıca meyar kimi qəbul edir. Qloballşma ilə əlaqə kəsb edən texnoloji inqilab mənafelərin diferensasiyasına, dəyərlərin fərdiləşdirilməsinə imkan yaradır ki, insanlar və ayrıca şəxsiyyətlər onları öz davranışında rəhbər tuturlar.

Mənafelərin (maraqların) diferensasiyası vətəndaş cəmiyyətinin parçalanmasını, ictimai həmrəyliyin və razılığın aradan qaldırılmasını şərtləndirir. Belə şəraitdə demokratik siyasi təsisatların rolu azalır və onların demokratik idarə olunması zərurəti yaranır. Liberal demokratiya sisteminin formal saxlandığı

təqdirdə, onun məzmunu keyfiyyətcə dəyişir. Bu hal o zaman baş verir ki, vətəndaş iradəsi funksiyası minimal həddə düşür və vətəndaş fəallığı azalır. Nəzərə çarpan belə vəziyyət ictimai həyatın bütün sahələrində, eləcə də siyasi sferada və siyasi demokratiyanın formalaşması prosesində neqativ təsirini təzahür etdirir. Nəticə etibarilə, insanların ictimai və demokratik siyasi həyatda real iştirakı əhəmiyyətli dərəcədə məhdudlaşır. Beləliklə, ənənəvi demokratiyanı onun liberal mənasında tədricən avtoritarizmin yeni forması əvəz edir (1, 12). Bunu müasir siyasi demokratiya statusu nümunələri iddiasında olan ölkələrə və qloballaşan dünyada liberal demokratiyanın inkişaf meyli təsdiqləyir. Bununla əlaqədar xeyli tətqiqatçı belə qənaətə gəlir ki, neoliberal siyasi qloballaşma prosesi iqtisadi və informasiya xarakterli qloballaşmadan əhəmiyyətli dərəcədə geri qalır. Əlbəttə, bu proses siyasi demokratikləşmə prosesinə mənfi təsirdən də yan keçmir. Qlobal proseslər çərçivəsində demokratik meyllərin üstünlük təşkil etməsi heç də xüsusilə, demokratik tranzit ölkələrində əks antidemokratik proseslərin aradan qalxmasını şərtləndirmir, bu isə belə fikir yürütməyə əsas verir ki, demokratikləşmə prosesi müəyyən durğunluğa məruz qalır. Müəyyən dərəcədə bu onunla əlaqələndirilir ki, neoliberal qloballaşma demokratik idarəetmə prinsipini məhdudlaşdırır, hakimiyyətin yeni əksərazi mənbəyini yaradır… Belə şəraitdə siyasi demokratiya təsisatları bəzən avtoritar praktikanı pərdələməyə istiqamətlənir (2, 27).

Neoliberal qlobal demokratiyanın ziddiyyətli xarakteri tələb edir ki, tətqiqatçı demokratik siyasi qloballaşmanın alternativ modelinin əsaslandırılmasına diqqət yetirsin. Bu baximdan artıq Qərb siyasi elminin tətqiqatçılarının demokratiyanın digər, neoliberal tipindən fərqlənən, transmilli demokratiyanın formalaşmasının əsası kimi çıxış etməyə qadir olan demokratiyanın alternativ modelinin nəzəri cəhətdən əsaslandırılmasına cəhdi nəzərə çarpır. Belə ki, Con Drayzek işləyib hazırladığı “deliberativ (məsləhətçi) demokratiya” nəzəriyyəsində hər şeydən əvvəl, demokratiyanın liberal şərhini tənqid etməklə, bu modeli siyasi mənafelərin sadəcə birləşdirilməsi forması hesab edir.

Bu nəzəriyyənin başlıca tezisi ondan ibarətdir ki, burada məsləhətçi demokratiyanın dövlət və onun formal seçki hüququ mexanizmindən kənarda mövcudluğunun əhəmiyyəti bildirilir və bu mexanizmin əsl demokratik plüralizmlə, siyasiləşmiş vətəndaş cəmiyyəti ilə əvəz olunması qeyd edilir, belə əvəzedilmə vətəndaşın azad iradəsinin təminatı kimi nəzərə çatdırılır.

Dreyzek belə nəzəri axtarışları ilə kifayətlənməyərək standart olmayan öz nəzəri müddəalarının dünya siyasəti probleminə tətbiq olunmasını məsləhət bilir. O demokratik “autentilik” konsepsiyasına əsaslanır və bu konsepsiyanı “kommunikasiya vasitəsilə həyata keçirilən demokratik nəzarətin dərəcəsi, səviyyəsi kimi” başa düşür.

Siyasi demokratikləşmə ilə bağlı A.Yanq demokratik siyasi prosesin prosesual aspektini vurğulayaraq belə mövqedən çıxış edir ki, demokratik qərarların normativ legitimliyi kiminsə demokratik qərarların qəbulu prosesinə nə dərəcə-

də cəlb edilməsinə, bu prosesdə hansı cəmiyyətdə iştirakına və həmin qərarların nəticələri üçün daşıdığı məsuliyyətə əsaslanır.

Siyasi prosesdə real demokratik iştirakçılıq, problemlərin müzakirəsi çərçivəsində vətəndaşların mənafeyi barədə təsəvvürləri təmin edən nümayəndəliyə aid edilməlidir, demokratik iştirakçılığın nümayəndəli demokratiya çərçivəsində qarşılıqlı siyasi fəaliyyət forması ilə məhdudlaşması nəzərə çatdırılır.

A.Yanq demokratik prosesə cəlb olunmağın real şəraitini yalnız siyasi iştirakçılığın sosial-iqtisadi amilləri ilə deyil, hər şeydən əvvəl, vətəndaşların bütün səviyyələrdə öz siyasi hüquqlarından hüquqi təminatla istifadə etmələri, eləcə də, şəxsiyyətin qlobal demokratik prosesdə iştirakına hüquqi təminat verilməsi ilə əlaqələndirir və əsaslandırır (3, 200-201).

Siyasi demokratikləşmənin ən mühüm ümumi şərti siyasi sabitlikdir. Siyasi stabillik ölkənin idarə olunmasında, dövlət təsisatlarını saxlamaq şərtilə, qanun çərçivəsində cəmiyyətdə, islahatları, dəyişiklikləri nəzərdə tutur. Belə bir fikir mövcuddur ki, demokratiyanın sabitliyi adətən demokratiyaya birbaşa tədricən keçilməsindən və ondan əhali üçün minimal istifadə edilməsindən asılıdır. S.P.Hantinqton qeyd edir ki, demokratiyanın həyat qabiliyyətini ideologiyalaşdırılmış siyasi hərəkatın rəhbərliyi altında inqilabi yolla yaratmaq olmaz. O, yazır: “Avtoritar rejimə qarşı müxalifətdə olan inqilabi qüvvələr özünü demokratik hesab edir, lakin onlar hakimiyyətə gələrkən, əvvəlki rejimdən daha çox repressiv qaydalar təşkil edirlər”.

Qlobal demokratikləşmənin gedişinə daxili şəraitlə yanaşı, müəyyən xarici amillər də təsir göstərir. Müasir siyasi nəzəriyyə siyasi demokratikləşməyə, sosial-siyasi transformasiyaya təsir göstərən xarici şəraitin və amillərin məcmusuna aşağıdakıları aid edir.

- müasir dünyada demokratiyaya normativ münasibətin yayılması;
- yeni beynəlxalq təsisatlaşmış demokratikləşmə mühitinin təşəkkülü;
- sivil inkişafın qərbləşmə istiqamətinə dövlətin geniş mədəni təsiri;
- dünyanın xeyli ölkələrində real surətdə baş verən demokratik hüquq və azadlıqların genişlənməsi;
- birqütüblü beynəlxalq sistemin iflasi;
- avtoritarizmdən daha demokratik idarəetmə formasına keçıd üçün spesifik əlverişli stimullaşdırma yaradan beynəlxalq imkan.

Qlobal demokratikləşmə prosesinə beynəlxalq amillərin təsiri ilə bağlı müxtəlif konsepsiyalar və fikirlər mövcuddur. Bu mənada F.Şmitter və L.Uaymxedin mövqeləri maraq doğurur. Bu tədqiqatçılar daxili siyasi nəticələrin əldə edilməsinə təsir göstərən dörd analitik kateqoriya və ya üsul müəyyənləşdirmişlər:

- nəzarət-açıq şəkildə pozitiv və ya neqativ sanksiyalar tətbiq etməklə, xarici siyasət vasitəsilə bir ölkənin digər ölkədə demokratiyanı reallaşdırılması;
- diffuziya - bir ölkənin digərinə «neytral» məcburetmədən kənar, bəzən isə beynəlxalq kanallar vasitəsilə təsiri;
- razılaşma - yeni demokratik normalar doğuran beynəlxalq proseslərin və

daxili qrupların qarşılıqlı fəaliyyətinin mürəkkəb dəsti;

- "öyrətmə" (şəraitlə əlaqələndirmə);
- beynəlxalq təsisatlar tərəfindən sərfəli xüsusi mənfəət şəraiti müəyyənləşdirmək.

F.Şmitter qeyd edir ki, nəzarət və diffuziya beynəlxalq praktikada kifayət qədər çoxdan mövcuddur, razılaşma və "öyrətmə" isə demokratikləşmənin üçüncü dalğası gedişində təzahür etmişdir. Bu tədqiqatçı hesab edir ki, demokratikləşmə dalğası müvafiq olaraq məhz diffuziya prosesi ilə şərtlənir (4, s. 194).

Qeyd etmək lazımdır ki, nəinki demokratiyanın təşəkkülü və inkişafı, eləcə də, siyasi demokratikləşməyə təsir göstərən bütün səbəb və amillər bu və ya digər formada elitar dairələrin düşüncə tərzində təzahür edir. Elitar dairələr mənsub olduqları ölkələrdə demokratik siyasi qaydaların yaradılmasını qarşılarına məqsəd qoyurlar. Belə düşüncə tərzi elə ideal təsəvvürlərin əsas rol oynamasını müəyyənləşdirir ki, əslində praktiki siyasətlə möhkəmləndirilir və sosial reallığın yaradılması mənbəyini təşkil edir.

Müxtəlif ölkələrdə həyata keçirilən demokratikləşmə təcrübəsinin təhlili və ümumiləşdirilməsi bu prosesin modelinin tipik nümunələrini fərqləndirməyə imkan yaradır. Adətən demokratikləşmənin britaniya variantı klassik model hesab olunur. Həmin modelin mahiyyəti ondan ibarətdir ki, monarxiya hakimiyyəti tədricən məhdudlaşdırılır, vətəndaşın və parlamentin hüququ genışlənir. İlk başlanğıcda vətəndaş hüququ (şəxsi hüquq), sonra siyasi hüquq, daha sonra isə sosial hüquq reallaşır. Tədricən seçki senzi məhdudlaşdırılır və aradan qaldırılır. Bu modeli xətti demokratiya adlandırırlar. O, demokratiyanın tədricən, bir istiqamətli genişləndirilməsini ifadə edir. Xətti demokratiyadan əhəmiyyətli dərəcədə fərqlənən digər model dövri model hesab olunur. O siyasi elitanın demokratiyasına formal pozitiv münasibətdə demokratik və avtoritar idarəetmə formalarının əvəzlənməsini nəzərdə tutur. Belə halda xalq tərəfindən seçılən hökumət ya hərbiçilər tərəfindən devrilir və yaxud özü hakimiyyəti qəsb edir.

Dövri modellə müqayisədə demokratikləşmənin başqa bir modeli-dialektik model daha perspektivlidir. O da dövri model kimi keçid siyasi rejimlər üçün qeyri sabitliyi ilə səciyyələnir. Lakin dialektik modelin fərqləndirici cəhəti ondan ibarətdir ki, burada demokratiyaya keşid artıq kifayət qədər yetkin daxili zəminin təsiri altında həyata keçirilir.

Lakin demokratikləşməyə bu və ya digər mövqedən yanaşılmasına baxmayaraq, ona aid yaradılan hər hansı model demokratiyaya daxilən xas olan ziddiyyətləri nəzərdən qaçırmamalıdır. Praktiki dəyişikliklərdə həmin ziddiyyətlərə etinasızlıq layihələşdirilən məqsədləri şübhə altına ala bilər, dövlətin resurslarının tükənməsinə, kütlələrin və ya elitanın demokratik cəmiyyət ilə bağlı ümidsizliyinə, hətta demokratik rejimlərin totalitar və avtoritar rejimlərə çevrilməsinə gətirib çıxara bilər. Bu ziddiyyətlər yalnız demokratiyanın formal və real əsaslarının üst-üstə düşməməsi ilə deyil, eləcə də ümumi hakimiyyətin öz təbiətinə xas olan daxili münaqişələrlə (insanların real qeyri-bərabərliyi, haki-

miyyət təsisatlarının statusunun şəxsiyyətin statusu üzərində üstünlüyü və s.) şərtlənir. İtaliya nəzəriyyəsi N.Bobbio bu ziddiyyətləri obrazlı şəkildə, demokratiyanın "yerinə yetirilməyən vədləri" adlandırmışdır.

Politoloji ədəbiyyatda geniş statistik materialların müqayisəli təhlili əsasında demokratikləşmənin başlıca zəmini və yolları belə müəyyənləşdirilir; iqtisadi, sosial, mədəni, dini və eləcə də xarici siyasi zəmin. Siyasi demokratikləşmənin ən əhəmiyyətli yollarından biri bütövlükdə industrial və iqtisadi inkişafın nisbətən yüksək inkişaf səviyyəsidir. İqtisadi göstəricilərə görə hazırda demokratik ölkələr avtoritar və totalitar dövlətləri əhəmiyyətli dərəcədə qabaqlayırlar. Lakin demokratiya ilə iqtisadi inkişaf səviyyəsi arasında bilavasitə asılılıq səbəbi yoxdur.

İndustrial inkişaf səviyyəsindən demokratiyanın digər zəmini hesab olunan urbanizasiyanın yüksək dərəcəsi də asılıdır. Kənd əhalisi ilə müqayisədə iri şəhərlərin sakinləri demokratiyaya daha hazırlıqlıdır.

Demokratikləşmənin daha bir mühüm şərti kütləvi kommunikasiyanın inkişaf etməsidir. Bu, mətbuatın, radio və televiziyanın yayılması ilə səciyyələnir. Böyük ərazisi və yüksək sayda əhalisi ilə fərqlənən ölkələrdə kütləvi kommunikasiyasız praktiki olaraq demokratiya qeyri-mümkündür.

Demokratikləşmənin digər əhəmiyyətli zəmini vətəndaşların rifahının yüksək səviyyədə olmasıdır. O, sosial münaqişələrin yumşaldılmasına imkan yaradır. İctimai bolluq cəmiyyətin demokratikləşməsinə əlverişli təsir göstərir.

Siyasi demokratiya təsisatları da müxtəlifdir. Onlara aiddir: parlament demokratiyası; demokratik seçki sistemi; kütləvi informasiya vasitələri; nümayəndəli demokratiya təsisatları; siyasi partiyalar; ictimai-siyasi təşkilatlar; yerli özünüidarə orqanları; təzyiq qrupları və b.

Siyasi demokratiyanın özündə əks etdirdiyi və siyasi demokratikləşməni şərtləndirən ən əhəmiyyətli demokratik təsisatlardan biri parlament hesab olunur. Parlament təsisatında siyasi demokratiya aydın şəkildə öz əksini tapır. Demokratiyanın başlıca prinsipləri olmaq etibarilə xalqın suverenliyi, çoxluğun idarəetməsi, nümayəndəlik, plüralizm paralamentarizmin bazasını təşkil edir.

Parlament öz fəaliyyətini demokratik prinsiplər və dəyərlər zəminində həyata keçirən hər bir dövlətin zəruri atributudur. O, yüksək seçkili nümayəndəli orqan olmaqla, əhalinin sosial və siyasi cəhətdən fəal qruplarını təmsil edən nümayəndələr hesabına formalaşır. Bu demokratik təsisatda qərarların qəbulu mexanizmi də "çoxluq" prinsipi ilə qəbul edilir (azlığın fikrinə hörmət etməklə yanaşı).

Parlament mürəkkəb və ziddiyətli fenomendir. Elə buna görə də, tədqiqatlar onu qəti və birdəfəlik qiymətləndirməkdə çətinlik çəkirlər. Əlbəttə, ümumi səpkidə parlament xalqın hüquqi və siyasi mənafeyinin ifadəsi kimi mənalandırılır. Parlamentin səlahiyyəti bir tərəfdən onun hüquqi mövqeyini, ölkənin siyasi həyatında rolunu müəyyən edən mühüm amildir, digər tərəfdən ümumilli nümayəndəli təsisat olmaq etibarilə, parlamentin dövlət hakimiyyətinin digər orqanları ilə qarşılıqlı münasibətlərin zəruri şərtidir.

Parlament cəmiyyətin əksəriyyətini təmsil etdiyi və onun iradəsini həyata keçirdiyi üçün dövlət hakimiyyətinin legitimliyinin ən əhəmiyyətli təsisatıdır. Siyasi legitimlik cəmiyyəti maraqlandıran siyasi qərarların qəbul edilməsi ilə reallaşır.

Ayrılıqda parlamentin, bütövlükdə hakimiyyətin legitimliyi hələ onların səmərəli siyasi təsisat olmasına əsas vermir. Qanuna əsaslanan, xalqın iradəsi ilə formalaşan legitim hakimiyyət səmərəli olmaya da bilər. Legitim hakimiyyətin və onun qollarının (eləcə də qanunverici təsisat olan parlamentin) səmərəli cəhətlərdən biri məhz demokratik prinsiplər və dəyərlər əsasında inkişaf etmiş müasir cəmiyyət qurulmasına nail olmaqdan ibarətdir. Rəsmi hakimiyyətin legitimliyinin, «qanunililiyinin cəmiyyət tərəfindən etiraf olunması siyasi hakimiyyətin fundamental xarakterikasıdır». Politoloji tədqiqatlarda belə xarakteristika «legitimlik» (latınca legitumus sözündən götürülüb qanuni deməkdir) anlayışında əksini tapır. «Hakimiyyətin legitimliyi» anlayışını elmə ilk dəfə müasir politologiyanın patriarxı adlandırılan böyük alman politoloqu Maks Veber bəxş etmişdir. Veber bildirirdi ki, legitimlik heç də həmişə bütün hallarda eyni zəminə, kökə malik olan birtipli proses deyildir.

Siyasi hakimiyyətin və xüsusilə onun qanunverici orqanı olan parlamentin legitimliyi mühüm əhəmiyyət kəsb edir. Siyasi demokratikləşmə prosesi təsdiqləyir ki, cəmiyyətin hakimiyyəti müdafiə etməsi, ona inam nümayiş etdirməsi hakimiyyətin, eləcə də qanunverici hakimiyyətin səmərəliliyi üçün vacib şərtdir. Belə səmərəliliyi təmin edən siyasi amillərdən biri məhz başlıca demokratik təsisat sayılan parlament demokratiyasıdır. Qeyd etmək vacibdir ki, vətəndaşların siyasi hakimiyyətin qanuniliyinə zəif inamı bu hakimiyyətin qeyri-sabitliyini şərtləndirən başlıca səbəblərdən biridir. Heç də təsadüfi deyildir ki, bu və ya digər siyasi hakimiyyət xalqın inamını, etimadını qazanmağa cəhd edir. Bu cəhət siyasi demokratikləşmənin modern mərhələsində getdikcə xüsusi əhəmiyyət kəsb edir.

Siyasi demokratikləşmənin modern mərhələsi bir sıra başlıca meyllərlə səciyyələnir. Həmin meyarlardan birincisi, siyasi hakimiyyətin demokratikləşməsi prosesinin intensivliyinin güclənməsidir. Başqa sözlə, bilavasitə zorakılığa əsaslanan siyasi hakimiyyət ictimai konsensusa və özünüidarəyə əsaslanan idarəçilik forması ilə əvəz olunur. Hakimiyyət münasibətlərində siyasi demokratikləşmə meylinin güclənməsi həmin münasibətlərə ictimai hərəkatların, qeyri-siyasi birliklərin təsirinin artması və posttotalitar ölkələrdə vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafı təsdiqləyir.

İkinci meyl sivil və demokratik hakimiyyətin mütləq əlaməti kimi legitimlik amilinin yüksəlməsində təzahür edir. Bütün ölkələrin hakimiyyət strukturları siyasi hakimiyyətin legitimliyini təmin etmək məqsədilə maksimal səy göstərirlər, başqa sözlə, cəmiyyət tərəfindən onun qanuni xarakterinin etiraf olunmasına çalışırlar.

Üçüncü meyl siyasi hakimiyyətin təşəkkülü və fəaliyyətinin köklü cəhətlərindən biri olmaq etibarilə, hakimiyyətin bölünməsi sisteminin formalaşmasını

səciyyələndirir. Müasir suverenlik ideyasında belə bir prinsip öz əksini tapıb ki, hakimiyyət özünün hər hansı qolu, (eləcə də parlament) və ayrıca şəxsiyyət tərəfindən ölkədə antidemokratik rejimin təşəkkülünə yol verməməlidir. Bu prinsip real surətdə hakimiyyətin bölünməsi sistemində təcəssüm olunmuşdur. Hakimiyyətin bölünməsi onun üç başlıca və bərabər mahiyyətli qollarının – qanunverici, icraedici və məhkəmə hakimiyyətinin mövcudluğunu və qarşılıqlı fəaliyyətini nəzərdə tutur. Söhbət hakimiyyətin bölünməsinə əsaslanan təsisatlaşdırılmış hakimiyyətdən gedir. Hakimiyyətin bölünməsi siyasi hakimiyyətin bütün növlərinin və qeyri-siyasi hakimiyyətin fəaliyyətinin prinsipial şərti və başlıca mexanizmidir.

Dördüncü meyl hakimiyyətin müxtəlif qolları arasında ziddiyyətlərin artmasını əks etdirən neqativ prosesi ifadə edir. Bu meyl bütün ölkələrdə iqtisadi və siyasi sabitliyə təsir göstərir. Nəhayət, sonuncu meyl hakimiyyət strukturları aparatının yüksək sürətlə bürokratikləşməsində nəzərə çarpır. Bu proses faktiki olaraq bütün ölkələrdə təzahür edir və neqativ nəticələr doğurur.

Bürokratik aparat siyasi sistemin başlıca ünsürlərindən biridir. Bürokratik hakimiyyətdə təmsil olunanlar cəmiyyətdəki rollarını aydın başa düşür və mövcud sosial sistemdə ümümi mənafelərin təcəssümü olmağa cəhd etsələr də, praktikada onun spesifik maraqlarının formalaşması prosesi baş verir.

Siyasi demokratikləşmənin prinsipləri və təsisatları siyasi təcrübədə işlənib hazırlanmış müxtəlif demokratik texnologiyalarda reallaşır. Bu texnologiyaya, başqa sözlə proseduraya seçkilər, səsvermə, plebist, referendumlar, danışıqlar, kompromislər və s. aiddir. Hazırda birbaşa seçkilərə üstünlük verilməsi heç də təsadüfi deyil. Çünki əvvəllər geniş istifadə olunan dolayı seçkilər seçki prosedurlarının (texnologiyalarının) demokratikliyini əhəmiyyətli dərəcədə azaltdı. Onlardan istifadə edilməsi ilk növbədə, seçicilərin xeyli hissəsinin seçkilərin keçirilməsində şəxsən iştirak etmək, onların gedişinə və nəticələrinə bilavasitə təsir göstərmək imkanlarının məhdudlaşdırılması ilə bağlıdır. Birbaşa seçkilər isə seçicilərin onlarda həqiqətən ümumi iştirakı imkanlarını yaradır və seçki kompaniyasının tam legitimliyini təmin edir.

Bütöv ictimai hadisə olan demokratiyada seçkilər ən ümumi prosedur kimi əhəmiyyət kəsb edir. Demokratiyanın tamlığı xeyli dərəcədə seçkilərin özünün texnikasından, parlamentin seçilməsi yollarından, digər hakimiyyət və idarəetmə orqanlarının seçilməsi qaydalarından, seçicilərin bərabərhüquqlu seçim dərəcəsindən, ümumi seçki hüququna necə əməl edilməsindən, açıq və ya gizli səsvermədən və digər texnologiyalardan asılıdır.

Siyasi demokratikləşmə təsisatları sistemində kütləvi informasiya vasitələri özünəməxsus əhəmiyyətə malikdir. Adətən «hakimiyyətin dördüncü qolu» adlandırılan KİV-dən kənarda demokratiya ağlasığan deyil. KİV hakimiyyət strukturları ilə bilavasitə bağlıdır, onlar bir-biri ilə qarşılıqlı əlaqəyə malikdir. KİV eləcə də siyasətin ayrılmaz tərkib hissəsidir. Həyat fəaliyyətinin digər növlərinə nisbətən siyasət xüsusi məlumat mübadiləsi vasitələrinə daha çox ehtiyac duyur.

Belə ehtiyac ilk öncə, siyasətin öz təbiətindən irəli gəlir və vətəndaşların qrup məqsədlərinin və maraqlarının həyata keçirilməsi baxımından vacibdir.

KİV müasir demokratik cəmiyyətin ən əhəmiyyətli təsisatlarından biri hesab olunur. KİV cəmiyyətin bütün sferalarına və təsisatlarına, siyasətə, mənəvi həyatın formalarına əhəmiyyətli təsir göstərir. O, demokratik siyasi rejimlərdə cəmiyyətin siyasi demokratikləşməsi baxımından çox önəmli rol oynayır. Müasir politologiyada KİV nəinki hakimiyyətin dördüncü qolu, eləcə də böyük arbitr (hakim) kimi dəyərləndirilir.

Demokratik siyasi sistemin kütləvi informasiya vasitələrinə tələbatı bilavasitə onun funksiyalarından, siyasətin agentlərindən (subyektlərindən), demokratik siyasi qərarların qəbul edilməsi üsullarından və digər demokratik mahiyyətli amillərdən asılıdır. V.P.Puqaçev və A.İ.Solovyovun qeyd etdikləri kimi, KİV xeyli demokratik və totalitar ideyaların həyata keçirilməsini praktik cəhətdən reallaşdırdı (5, 311). O, hakimiyyətin legitimliyinin və həyata keçirilməsinin üsullarını əhəmiyyətli dərəcədə dəyişdi. KİV demokratik hakimiyyətin həyata keçirilməsi texnologiyasının təkmilləşdirilməsinə də ciddi təsir göstərir.

## ƏDƏBIYYAT


1. Галкин А.А. Поступ глобализации и кризис глобализма // Полития, 2002. № 2, с.8-15.
2. Вебер А.Б. Нелиберальная глобализация и ее оппоненты // Полития, 2002. Т.25 -№2. с.24-31.
3. Sruikshank B. Inclusion and Democracy // American Political Science Review. 2002. vol. 96 – No. 1. P. 196-208.
4. Мухаев Р.Т. Теория политики М.,Юнити-Дана. 2005, 625 с.
5. Пугачев В.П, Соловьев А.И. Введение в политологию М. Аспект Пресс. 2010, 448 с.


## СОДЕРЖАНИЕ И СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОЛИТИЧЕСКОЙ ДЕМОКРАТИЗАЦИИ


**Э.Б. ГАДЖАЛИЕВ**


## РЕЗЮМЕ


В статье раскрываются содержание, сущность и специфические особенности политической демократизации, исследуются обуславливающие этот процесс объективные и субъективные факторы, а также, в целом, анализируются социально-политические ценности строительства демократического общества.



**Ключевые слова:** политическая демократия, политический, демократизация, демократический институт, парламент, модель

## CONTENTS AND SPECIFIC FEATURES OF POLITICAL DEMOCRATIZATION

**E.B.HAJALIYEV**

**SUMMARY**

The article reveals the contents, essence and specific features of political democratization, examines objective and subjective factors which cause these processes and analyzes socio-political values of the construction of democratic society.

**Key words:** political democracy, political, democratization, democratic institute, parliament, model